*Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə Brüsseldə səfərdə olarkən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə, NATO-nun Baş katibi Yens Stoltenberqlə görüşlər keçirib, ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığı, Ermənistanla münaqişədən sonra regiondakı vəziyyətlə bağlı danışıqlar aparıb. Təbii ki, Azərbaycan liderinin diplomatik məharəti bu görüşlərdə də özünü göstərib və ölkəmizin bu məsələlərə yanaşması həm Avropa İttifaqı, həm də NATO-da ciddi dəstək qazanıb. Bu barədə fikirlərini bölüşən jurnalist, "Qızıl Qələm" və "Zərdabi" mükafatları laureatı Nəcəfqulu Nəcəfov bildirdi:*

# İnanırıq ki, Cənubi Qafqaz regionuna sülh günəşi doğacaq



– Qeyd etməliyəm ki, Azərbaycan vətəndaşı olaraq Brüsseldə baş verən bütün hadisələri böyük maraqla izlədik və Prezident İlham Əliyevin ədalətli və prinsipial mövqeyinin ən müxtəlif səviyyələrdə dəstəklənməsindən məmnun olduq. Bir daha əmin olduq ki, Azərbaycan lideri istər delimitasiya və demarkasiya, istər nəqliyyat və kommunikasiyaların açılması, istərsə də Ermənistanla sülh müqaviləsinin imzalanması məsələləri ilə bağlı ciddi irəliləyişə nail olub. Bütün bunlar vətəndaş olaraq bizim hər birimizin gözləntiləridir. Şübhəsiz ki, hər bir azərbaycanlı Cənubi Qafqazda sülh yaranmasını istəyir və Ermənistanın da normallaşma ilə bağlı lazımi addımlar atacağını gözləyir. Prezident İlham Əliyev də Brüssel görüşlərində bəyan edib ki, regionda kifayət qədər müharibə olub, qan tökülüb, yetər, daha sülh və sabitliyin təmin olunması üçün addımlar atmaq lazımdır.

Dövlətimizin başçısı beynəlxalq təşkilatların regionda sülh prosesinə dəstəyini də yüksək qiymətləndirib, dekabrın 15-də Avropa İttifaqı Şərq Tərəfdaşlığının VI Sammitində çıxışı zamanı bildirib ki, bu məsələdə Avropa İttifaqının səyləri təqdirəlayiqdir. Aİ Şurasının Prezidenti Şarl Mişelin bu ilin iyul ayında Cənubi Qafqaz regionuna, o cümlədən Azərbaycana səfəri çərçivəsində bununla bağlı ətraflı müzakirələr aparılıb. Şarl Mişelin təşəbbüsü ilə dekabrın 14-də Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında 5 saata yaxın davam edən müzakirələr də konstruktiv keçib. Prezident Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına verdiyi töhfələrə görə Şarl Mişelə minnətdarlığını bildirib. Şarl Mişelin təşəbbüsü ilə aparılan danışıqlar zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat infrastrukturunun, xüsusilə də dəmir yolu xəttinin çəkilməsi kimi məsələlər müzakirə olunub. Dövlətimizin başçısı, eyni zamanda, iki ölkə arasında yaranmış konstruktiv mühitin əldən verilməməsi və yaranmış fürsətdən istifadə edərək regionda davamlı sülhün təmin olunması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini qeyd edib.

Prezident deyib ki, son zamanlar Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün münbit zəmin yaranıb. Onun sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın özü tərəfindən hərbi-siyasi yollarla həll edilib. Dağlıq Qarabağ münaqişəsi artıq yoxdur və hər iki ölkə gələcəyə baxmalıdır.

Cənab İlham Əliyev 28 il ərzində danışıqlarda hər hansı nəticəyə nail olmamış ATƏT-in Minsk qrupundan yeni geosiyasi reallığa uyğun cavab gözlədiyini bildirib. Azərbaycan tərəfi hesab edir ki, Ermənistanla Azərbaycan arasında sülh sazişinin hazırlanması, sərhədlərin delimitasiyası, insanlar arasında təmasların yaradılması, etimad quruculuğu tədbirləri və digər məsələlərdə Minsk qrupu tərəfindən kömək göstərilə bilər.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə minalar məsələsinə də toxunaraq Azərbaycanın mülki vətəndaşlarının bundan əziyyət çəkdiyini və bu günə qədər 200-ə yaxın insanın həlak olduğunu və ya yaralandığını bildirib. Avropa İttifaqı və üzv dövlətlər tərəfindən Azərbaycana mina probleminin aradan qaldırılması üçün texniki və maliyyə yardımının göstərilməsinin vacibliyini diqqətə çatdırıb.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan liderinin ardıcıl, davamlı və məqsədyönlü səyləri nəticəsində yaxın vaxtlarda yaşadığımız regiona yenidən sülh günəşi doğacaq, insanlar rahat nəfəs alacaqlar.

***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***

Xalq qəzeti .-2021.- 19 dekabr.- S.4.